UOT 37.0

***Məlahət İsgəndər qızı Əsgərova***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Gəncə Dövlət Universiteti*

# AUDİTORİYADANKƏNAR TƏDBİRLƏR ZAMANI PEDAQOJİ ƏMƏKDAŞLIĞIN TƏMİN EDİLMƏSİ

***Малахат Искендер гызы Аскерова***
*докторант по программе доктора философии*
*Гянджинский Государственный Университет*

# ПЕДАГОГИЧЕСКОЕ СОТРУДНИЧЕСТВО В ВНЕАУДИТОРНЫХ МЕРОПРИЯТИЯХ

***Malahat İsgandar Asgarova***
*doctorial student in the program of doctor of philosophy*
*Ganja State University*

# PEDAGOGICAL COOPERATION IN OUT-OF-AUDIT EVENTS

**Xülasə.** Pedaqoji təfəkkür şəraitində "pedaqoji əməkdaşlıq" özünəməxsus rol oynayır. Pedaqoji əməkdaşlıqda müəllimin pedaqoji üslubunun, pedaqoji texnikanın, pedaqoji mərifətinin istiqamətləri, amilləri, şərtləri, pedaqoji mədəniyyəti özünün ifadəsini tapır.

Məqalədə auditoriyadankənar tədbirlər zamanı pedaqoji əməkdaşlıq məsələlərindən danışılır.

***Açar sözlər***: *auditoriyadankənar tədbirlər, əməkdaşlıq, pedaqoji əməkdaşlıq, boş vaxt, asudə vaxt, müəllim-tələbə əməkdaşlığı*

**Резюме**. В условиях педагогического мышления помыслы передовой педагогической общественности находят свое воплощение в реализации идей «педагогики сотрудничества», в которых отражены и сконцентрированы новые направления и факторы и педагогического стиля, и педагогического такта, и педагогической техники педагога.

В статье рассматриваются вопросы педагогического сотрудничества во внеучебной деятельности.

***Ключевые слова***: *внеаудиторные мероприятия, сотрудничество, сотрудничество, педагогическое сотрудничество, свободное время, досуг, сотрудничество учителя и студента*

**Summary.** In the conditions of pedagogical thinking, the thoughts of the advanced pedagogical community are embodied in the implementation of the ideas of "pedagogy of cooperation", which reflect and concentrate new directions and factors of both the pedagogical style, pedagogical tact, and pedagogical technique of the teacher.

The article discusses the issues of pedagogical cooperation in extracurricular activities.

***Keywords***: *extracurricular activities, cooperation, pedagogical collaboration, free time, leisure, teacher and student ratio*

Yeni pedaqoji təfəkkür şəraitində şəxsiyyətin fəallığı, işgüzarlığı, yaradıcı müstəqilliyi özünəməxsus yer tutur. Ali təhsil sisteminin demokratikləşdirilməsi ilə bağlı olan islahatlar tələbə gənclərin nəinki təhsil sahəsində, eyni zamanda ictimai həyatda fəallığının artırılmasını tələb edir. Səmərəli nəticələrə nail olmaq üçün müəllim və tələbələrin əməkdaşlığının təmin olunması, müəllim-tələbə münasibətlərinin düzgün qurulması son dərəcə vacibdir. Bu sahədə auditoritadankənar tədbirlər özünəməxsus rol oynayır.

Mövcud fəlsəfi, psixoloji, pedaqoji və sosioloji ədəbiyyatın təhlilindən görünür ki, asudə

vaxtın səmərəli təşkilinin vacibliyinə hələ qədim zamanlardan (Platon, Aristotel, C. Lokk və b.) diqqət yetirilmiş, şəxsiyyətin təşəkkül tapıb formalaşmasında asudə vaxtın çox böyük imkanlara malik olduğu göstərilmişdir. K.D. Uşinski asudə vaxtı insanın həyat fəaliyyətində zəruri komponent hesab edirdi.

Auditoriyadankənar tədbirlər tələbələrin boş vaxtlarında, asudə vaxtlarında həyata keçirildiyindən boş vaxt və asudə vaxt anlayışlarına aydınlıq gətirilməsi zərurətə çevrilir. Bu anlayışlar arasında yaxınlıq olsa da xeyli fərqli cəhətləri vardır.

Mənbələrdə göstərildiyi kimi, "*Asudə* odur bir insanın istirahət etmək və ondan sadəcə iş olmayan işlərdə faydalanmaq vaxtı, fərdin bəyəndiyi və sevdiyi hər şeyi etmək vaxtıdır. Boşluq termini, insana heç bir iş görmədən və ya iş görmədən, yəni bəzi öhdəliklər xaricində olduğunu göstərmək üçün istifadə edilən bir sifətdir. İstirahət, işləyən və ya təhsil alan insan üçün vacib olan fiziki və ya intellektual ətalət vəziyyəti kimi tanınır" (1).

Bizim qənaətimizcə, asudə vaxt özünü ifadə etməkdən ötrü boş vaxtını fəal istirahətə və tələbə şəxsiyyətinin inkişafına yönəltməkdir.

Bəzən ali təhsil müəssisələrində auditoriyadankənar tədbirlərin təşkilinə fikir verilmir. Bu, gənclərin asudə vaxtlarının şən, mənalı və məzmunlu keçirilməsinə müəyyən əngəllər yaradır. Nəticədə tələbələr öz asudə vaxtlarını kənarlarda keçirirlər. İnstitut və universitetlərin pedaqoji kollektivlərinin auditoriyadankənar tədbirlərə diqqət yetirməməsi bir sıra mənfi hallara yol açır: tələbələrdə passiv vətəndaşlıq mövqeyi formalaşır. Onlarda ali təhsil müəssisəsinin və cəmiyyətin ictimai həyatına maraq azalır və s. Beləliklə, humanist və ümumbəşəri ideallar deformasiyaya uğrayır ki. Bu da gənclərin mənəvi və peşə səviyyəsində öz əksini tapır.

Ümumtəhsil məktəblərində sinifdənxaric tədbirlərdə olduğu kimi, institut və universitetlərdə də auditoriyadankənar tədbirlərin söhbət və mühazirələr, müzakirə, tematik axşamlar, disput, müsabiqə, sual-cavab axşamları, məşhur adamlarla, alimlərlə, incəsənət nümayəndələri ilə görüşlər, yarış, tələbə konfransı, dəyirmi masa ətrafında görüşlər və s. formalarına müraciət edilir. Bu zaman pedaqoji əməkdaşlıq öncül yer tutur. Müəllim və tələbə arasında razılaşma, bir-birini anlama, bir-birinə diqqət olmazsa, tədbirlər də sönük və maraqsız olar.

Prof. A.N. Abbasov orta ixtisas məktəbləri üçün yazdığı "Pedaqogika" dərsliyində sinifdənxaric işə belə tərif vermişdir: "Sinifdənxaric iş dedikdə, təlimdənkənar vaxtlarda pedaqoji kollektiv üzvlərinin (sinif rəhbərləri, fənn müəllimləri, kitabxanaçı, şagird təşkilatları, məktəb ictimai təşkilatları, valideyn komitəsi, məktəb həkimi və b.) və məktəb rəhbərlərinin, bir sıra hallarda ailə və ictimaiyyət nümayəndələrinin və b. yaxından köməyilə müxtəlif təşkilatı formalarda aparılan təlim-tərbiyəvi tədbirlər" (2) nəzərdə tutulur.

Auditoriyadankənar tədbirlərə necə tərif vermək olar? Yuxarıdakı tərifdən faydalanmağa çalışaq: Auditoriyadankənar tədbir dedikdə, təlimdənkənar vaxtlarda ali təhsil müəssisələrinin pedaqoji kollektiv üzvlərinin yaxından köməyilə müxtəlif təşkilatı formalarda aparılan təlim-tərbiyəvi iş başa düşülməlidir.

İctimai inkişafın müasir mərhələsi öz mahiyyəti etibarı ilə "kütləvi əməkdaşlıq mərhələsi" (D. Tapskott) kimi səciyyələnir və aktual sosiomədəni vəziyyətdə subyektin həyatında obyektiv mürəkkəblik və çoxplanlılıq yaradır, qarşılıqlı münasibətlərin müxtəlif səviyyələrində onu "əməkdaş olmaq" zərurəti qarşısında qoyur.

Təhsil sahəsində şəxsiyyətin yiyələnməli olduğu zəruri səriştələr arasında aşağıdakılar qeyd oluna bilər: tələbələr arasında əməkdaşlığı təşkil etmək bacarığı; həmkarları ilə qarşılıqlı əlaqə qurmaq, kollektivdə fəaliyyət göstərə bilmək qabiliyyəti və s.

Yuxarıda deyilənlər istər nəzəriyyə səviyyəsində, istərsə də müəllimlərin praktik fəaliyyəti səviyyəsində əməkdaşlıq fenomeninə yenidən baxılmasını nəzərdə tutur.

Pedaqoji ədəbiyyatla tanışlıqdan görünür ki, bəzi müəllimlərdə əməkdaşlıq motivasiyası müəyyən qədər aşağı düşmüşdür. Onlarda öz işlərini yalnız fərdi pedaqoji fəaliyyət və fərdi yaradıcılıq kimi qəbul etmək meyli mövcuddur. Bu isə, təbii ki, yolverilməzdir.

Son zamanlar əməkdaşlıq problemi müxtəlif kontekstlərdə çoxmənalı pedaqoji fenomen kimi diqqət mərkəzinə gətirilir. Diqqət yetirək:

1. Əməkdaşlıqdan təhsilalanların təliminin şəxsiyyətyönlü texnologiyası kimi istifadə

olunur (N.N. Filyarovskaya, 2004; S.L. Boyarintseva, 2007);

2. Yeniyetmələrin əməkdaşlıq bacarıqlarının formalaşdırılması (M.Y. Zaytseva, 2006);

3. Təhsilalanların işbirliyinə hazırlanması (E.S. Lutoşliyeva, 2007);

4. Təhsilalanların arasında təhsil əməkdaşlıq mədəniyyətini inkişaf etdirmək (D.B. Əzizova, 2008);

5. Müasir məktəbdə əməkdaşlıq pedaqogikasının konseptual fikirlərinin və vasitələrinin həyata keçirilməsi (H.A. Kopılova, 2007; Ç.N. Safiullina, 2009).

Haqqında danışılan tədqiqatlarda müasir məktəbin tədris prosesində əməkdaşlıq potensialından istifadə imkanlarının öyrənilir.

Elmi mənbələrin bu və ya digər dərəcədə əməkdaşlığın nəzəri və praktik tərəflərinin üzə çıxarması, eləcə də universitetdəki qarşılıqlı fəaliyyət praktikasının təhlili bizə imkan verir deyək ki, təhsil məkanında əməkdaşlıq problemi son dərəcə önəmli bir məsələdir. Müəllim və tələbələr bir araya gəlməli, əməkdaşlıq şəraitində fəaliyyət göstərməlidirlər.

Tələbə müəllimin hörmətini saxlamalı, nüfuzunu gözləməli, müəllimi özünün məsləhətçisi, hamisi, bilik mənbəyi kimi görməli və qiymətləndirməli, ona inanmalı, etibar etməli, ondan öyrənməli, daim irəli getməlidir.

Müəllim də öz növbəsində əməkdaşlıq şəraitində tələbəni özünün yaxın dostu kimi qəbul etməli, biliyini, bacarığını ondan əsirgəməməli, tələbələrlə münasibətdə səmimi olmalı, ədalətli, nəzakətli, mərifətli, mehriban, qayğıkeş, həssas, humanist olmalıdır.

Müəllim tələbələrə münasibətdə ədalətsiz, intolerant, laqeyd ola bilməz. Bu, müəllim-tələbə münasibətlərini çətinləşdirə, müəllim-tələbə əməkdaşlığını qeyri-mümkün edər.

Belə bir vacib məqam da diqqət mərkəzində dayanmalıdır ki, "Əməkdaşlıq və dialoq səviyyəsində" qarşılıqlı əlaqə xüsusi əhəmiyyət daşıyır, çünki müasir sosial-mədəni həyatda tələbələr, gələcəyin mütəxəssisləri cəmiyyətin həqiqi dəyərlərinin yeni bir mədəni sintezini təmin edəcəklər.

Tələbələrinin əməkdaşlıq mədəniyyətini şəxsiyyətin ümumi mədəniyyətinin tərkib hissəsi kimi nəzərdən keçirilə bilər. Əməkdaşlıq mədəniyyəti - digər insanlarla səmərəli münasibətlərə daxilolma qabiliyyətini təyin edən şəxsiyyət xüsusiyyətlərinin sintezidir.

Əməkdaşlıq mədəniyyətində aşağıdakılar vacibdir:

-şəxsiyyətlərarası münasibətlərə inamın təzahürü;

-birgə fəaliyyət subyektləri ilə bir birlik yaratmaq bacarığı;

-yeni (qeyri-adi) fikirlər yaratmaq, sərbəst şəkildə onları ifadə etmək və həyata keçirmək bacarığı;

-ziddiyyətlərin konstruktiv həllinə fərdin yönəlməsi və s.

Pedaqoji əməkdaşlıqla bağlı maarifləndirmə işlərinin aparılmasında auditoriyadankənar tədbirlər özünəməxsus rol oynayır. Müəllimlərlə "Pedaqoji mədəniyyət", "Pedaqoji əməkdaşlıq", "Müəllim-tələbə münasibətləri"m və s. mövzularda seminarlar; tələbələrlə "İdeal müəllim", "Ciddi, tələbkar, humanist və xeyirxah müəllim", "Usta müəllim", "Əsl və s mövzularda söhbətlər və müzakirələr təşkil etmək mümkündür. Seminar, söhbət və müzakirələrdə müəllim-tələbə əməkdaşlığı zamanı özünü büruzə verən müsbət və qüsurlu cəhətlər bəlli olar və onların aradan qaldırılması, həlli yolları barədə düşünürlər.

Tələbələrlə sorğulardan nümunələr:

Zakir M. – Pedaqoji mədəniyyət hər hansı bir xalqın mənəvi həyatın mühüm fenomeni olaraq nəzərdən keçirilməlidir. Hər bir müəllim pedaqoji mədəniyyətə yiyələnməlidir. Belə olan təqdirdə müəllim-tələbə əməkdaşı uğurlu olar.

Nazilə N. – Müəllim davranış qaydalarına sahib olmalıdır.

Müəllimlərlə söhbətlərdən:

Müəllim Nazim G.P. - 2014-cü il noyabrın 6-da Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasında "Müəllimlərin etik davranış Qaydaları" təsdiq edilmişdir. Hər bir pedaqoji peşə sahibi, hər bir müəllim özünü həmin etik qaydalara uyğun aparmalıdır. Həmin qaydalar daxilində hərəkət etmirsə, təhsilalanlara münasibətdə qeyri-etik davranış və rəftar tərzində olarsa, müəllimlik hüququndan məhrum edilməlidir.

Müəllim Sakit H.L. - "Müəllimlərin etik davranış Qaydaları"nda "*Münasibətlər*" (4) adlanan xüsusi bənd var. Həmin bənddə göstə-rilir:

4.1. *Təhsilalanlarla münasibət*

4.1.1. Müəllim təhsilalanlarla münasibətdə qarşılıqlı hörmətə əsaslanan ünsiyyət tərzi seçməlidir.

4.1.2. Müəllim özünə və təhsilalanlara qarşı tələbkar olmalı, bu tələbkarlıq əsaslı və müsbət xarakter daşımalıdır.

4.1.3. Müəllim təmkinli davranmalı və hər bir vəziyyətdə özünü ələ almağı bacarmalıdır.

4.1.4. Müəllim təhsilalanlarda müsbət keyfiyyətlərin formalaşmasına və inkişafına təkan verəcək müasir təlim texnologiyalarından və strategiyalarından istifadə etməlidir.

4.1.5. Müəllim hər bir təhsilalanın sağlamlığını və rifahını düşünərək, onları zərərli vərdişlərdən çəkindirməlidir.

4.1.6. Müəllim təhsilalanların fəaliyyəti, nailiyyətləri, bilik, bacarıq və səriştələrinin qiymətləndirilməsində obyektiv və qərəzsiz olmalı, təhsilalanlarda özünə inam hissini möhkəmləndirməli, motivasiyanı yüksəltməlidir. Təhsilalanlara verilən qiymətin qərəzli şəkildə azaldılmasına və ya əsassız olaraq artırılmasına yol verməməlidir.

4.1.7. Müəllim təhsilalanlara qarşı xeyirxah və ədalətli olmalı, onlara qarşı haqsızlığa yol verdikdə səhvini etiraf etməyi bacarmalı, onun nəticələrini aradan qaldırmağa çalışmalıdır.

4.1.8. Müəllim hər zaman nitqinə fikir verməli, nitqində kobud və təhqiredici sözlər işlətməməlidir.

4.1.9. Müəllim təhsilalanlara qarşı fiziki zor işlətməməli, onların şərəf və ləyaqətini alçaldan hərəkətlərə (və ya hərəkətsizliyə) yol verməməlidir.

4.1.10. Müəllim təhsilalanlar tərəfindən ona verilən şəxsi məlumatların məxfiliyini qorumalıdır.

4.1.11. Müəllim öz vəzifə səlahiyyətlərindən sui-istifadəyə yol verməməlidir.

4.1.12. Müəllim peşə fəaliyyətini yerinə yetirmək müqabilində təhsilalanlardan hər hansı maddi və qeyri-maddi nemətlər tələb etməməlidir.

Haqqında danışılanlar ciddi şəkildə gözlənilsə, müəllim-tələbə əməkdaşlığına nail olunar.

**Problemin aktuallığı.** Müəllim-tələbə əməkdaşlığı som dərəcə önəmli və aktual bir məsələdir. Bu problemin auditoriyadankənar tədbirlərdə nəzərdən keçirilməsi diqqətəlayiqdir.

**Problemin yeniliyi.** Auditoriyadankənar tədbirlərin təşkili zamanı pedaqoji əməkdaşlıq diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə gənc tədqiqatçılardan ötrü faydalı olacaqdır.

**Ədəbiyyat:**

1. https://az.warbletoncouncil.org/ocio-1390
2. Abbasov, A.N. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2015, 360 s.
3. “Müəllimlərin etik davranış Qaydaları”nın təsdiq edilməsi haqqında. 2014-cü il noyabrın 6-da Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasında təsdiq edilmişdir. http://www.e-qanun.az/framework/28869

**E-mail**: a.malahat@gmail.com

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **A.N. Abbasov**,
*ped.ü.fəls.dok.* **L.A. Məmmədli**

**Redaksiyaya daxil olub:** 29.06.2021